


Təsisçi: Daşkəsən Rayon İcra Hakimiyyəti və qəzetin jurnalist kollektivi

Qəzet 1933-cü ildən çıxır | № 3 (5823) | Aprel-May 2019-cu il | Qiyməti 60 qəpik

# PREZİDENT İLHAM ƏLİYEV: "XALQIN BİZİM SİYASƏTƏ GÖSTƏRDİYİ DƏSTƏK BİZƏ GÜC VERİR VƏ EYNİ ZAMANDA, İMKAN VERİR Kİ, İSLAHATLARI DƏRİNLƏŞDİRƏK VƏ AZƏRBAYCANIN UĞURLU DAYANIQLI İNKİŞAFINI TƏMİN EDƏK".



**Azərbaycan Respublikası Prezidentinin**
**"Daşkəsən rayonunun Gəncə-Daşkəsən (27 km)-Quşçu-Çovdar-Çaykənd avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında"**
**SƏRƏNCAMI**

1. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Üç min nəfər əhalinin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirən Gəncə-Daşkəsən (27 km) - Quşçu-Çovdar-Çaykənd avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 8,5 milyon (səkkiz milyon beş yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 4 aprel 2019-cu il.

- *Aprelin 2-də Prezident İlham Əliyev Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin N saylı hərbi hissəsində olub.*
- *Aprelin 3-də Prezident İlham Əliyev Bakı-Tbilisi-Qars dəmir yolu xəttində hərəkət edəcək sərnişin qatarı ilə tanış olub.*
- *Aprelin 5-də Prezident İlham Əliyev Bakının Kürdəxanı qəsəbəsində məcburi köçkün ailələri üçün inşa edilən yeni yaşayış kompleksinin açılışında iştirak edib.*
- *Aprelin 9-da Prezident İlham Əliyev Azərbaycanın 10 milyonuncu sakininin valideynləri ilə görüşüb.*
- *Aprel 18-də Prezident İlham Əliyev Bakının Qaraçuxur qəsəbəsində yenidən qurulan Neftçilər parkında yaradılan şəraitlə tanış olub.*
- *Aprelin 23-də Prezident İlham Əliyev Mərdəkan-Qala avtomobil yolunun açılışında iştirak edib.*
- *Aprelin 26-da Prezident İlham Əliyev Pekində 2-ci "Bir kəmər, bir yol" Forumunda iştirak edib.*
- *Aprelin 28-də Prezident İlham Əliyev Bakıda Formula 1 SOCAR Azərbaycan Qran-Prisinin əsas yarışına baxıb.*
- *Aprelin 30-da Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.*
- *Mayın 2-də Prezident İlham Əliyev Bakıda V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılışında iştirak edib.*
- *Mayın 7-də Prezident İlham Əliyev Qobustan rayonuna səfərə gəlib.*
- *Mayın 9-da Prezident İlham Əliyev 9 May – Qələbə Günü münasibətilə Bakıda keçirilən mərasimdə iştirak edib.*
- *Mayın 9-da Prezident İlham Əliyev DOST Agentliyinin və ilk DOST mərkəzinin inzibati binasının açılışında iştirak edib.*
- *Mayın 10-da Prezident İlham Əliyev Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib.*
- *Mayın 10-da Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 15 illiyinə həsr olunmuş təntənəli mərasimdə iştirak edib.*
- *Mayın 14-də Prezident İlham Əliyev Azərbaycanın Belçikadakı səfirliyinin yeni binasının açılışında iştirak edib.*
- *Mayın 15-də Prezident İlham Əliyev XXV Azərbaycan Beynəlxalq Qida Sənayesi və XIII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı sərgiləri ilə tanış olub.*
- *Mayın 16-da Prezident İlham Əliyev Pirallahı Sənaye Parkında "Diamed" şpris istehsalı zavodunun açılışında iştirak edib.*
- *Mayın 21-də Prezident İlham Əliyev Sabunçu dəmir yolu vağzalı kompleksinin açılışında iştirak edib.*
- *Mayın 22-də Prezident İlham Əliyev Təzəpir məscidinin qarşısındakı yeni bağın və Füzuli küçəsi boyunca salınan Mərkəzi Parkın açılışında iştirak edib.*
- *Mayın 23-də Prezident İlham Əliyev Təzəpir məscidinin qarşısındakı yeni bağın və Füzuli küçəsi boyunca salınan Mərkəzi Parkın açılışında iştirak edib.*
- *Mayın 23-də Prezident İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə iftar mərasimində iştirak edib.*
- *Mayın 27-də Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış abidəni ziyarət edib.*
- *Mayın 27-də Prezident İlham Əliyev Dənizkənarı Milli Parkda gəzintiyə çıxıb.*
- *Mayın 29-da Prezident İlham Əliyev XXVI Beynəlxalq "Xəzər Neft və Qaz-2019" sərgi və konfransının açılışında iştirak edib.*
- *Mayın 29-da Prezident İlham Əliyev UEFA-nın nümayəndə heyətini qəbul edib.*
- *Mayın 29-da Prezident İlham Əliyev Olimpiya Stadionunda UEFA Avropa Liqasının final oyununa baxıb.*

***İQTİSADİ SAHƏDƏ APARILAN İSLAHATLAR HƏR BİR VƏTƏNDAŞIN HƏYATINDA ÖZ ƏKSİNİ TAPMALIDIR VƏ TAPIR. BİZ ƏMƏKHAQLARINI, PENSİYALARI, MÜAVİNƏTLƏRİ NƏYİN HESABINA ARTIRIRIQ? ONA GÖRƏ Kİ, DAHA DA SƏMƏRƏLİ İŞLƏYİRİK, ONA GÖRƏ Kİ, BÜDCƏ DAXİLOLMALARI ARTIR VƏ ARTACAQ. BİZ HƏLƏ İSLAHATLARIN NÖVBƏTİ MƏRHƏLƏSİNİN BAŞLANĞICINDAYIQ VƏ BU İLİN DÖRD AYININ YEKUNLARI DEMƏYƏ ƏSAS VERİR Kİ, ÇOX BÖYÜK NƏTİCƏLƏR ƏLDƏ EDİLİR. BU, BİZƏ İMKAN VERİR Kİ, SOSİAL SAHƏYƏ HƏM MADDİ TƏMİNAT, HƏM DƏ İSLAHATLAR BAXIMINDAN DAHA BÖYÜK DİQQƏT GÖSTƏRİLSİN.***

***İLHAM ƏLİYEV***
***AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ***
***BAKI ŞƏHƏRİ, 10 MAY 2019-CU İL***

# DAŞKƏSƏNDƏ 2019-CU İLİN BİRİNCİ RÜBÜ UĞURLA YEKUNLAŞIB



**Mayın 16-da Daşkəsən Rayon İcra Hakimiyyətinin iclas zalında "Daşkəsən rayonunda 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr"ə həsr olunmuş ümumrayon hesabat yığıncağı keçirilib.**

Yığıncağı giriş nitqi ilə Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev açaraq hesabat məruzəsi ilə çıxış edib. O, məruzəsində deyib:

- Azərbaycan Respublikasının möhtərəm Prezidenti cənab İlham Əliyevin son on altı il ərzində uğurlu siyasətinin nəticəsində Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edir, əhalinin rifahı yüksəlib, sabitlik, xüsusilə ölkəmizin sürətli inkişafı və beynəlxalq miqyasda nüfuzu əhəmiyyətli dərəcədə artıb, yeni-yeni nailiyyətlər, qələbələr qazanılıb. Ölkəmiz regionda lider dövlətə çevrilmişdir.

2019-cu ilin birinci rübü də əvvəlki illərdə olduğu kimi sosial-iqtisadi cəhətdən respublikamız üçün uğurlu olmuşdur.

Azərbaycan Respublikasının möhtərəm Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə aprelin 30-da Prezident sarayında, Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında birinci rübün sosial-iqtisadi inkişafı geniş təhlil edilərək, qarşıda duran vəzifələr göstərilmişdir.

Prezident Möhtərəm cənab İlham Əliyev iclası giriş nitqi ilə açmışdır.

O demişdir:

..."Bu ilin yanvar ayında 2018-ci ilin yekunlarını müzakirə edərkən mən əminlik ifadə etdim ki, 2019-cu il ölkəmiz üçün uğurlu il olacaq. Biz ötən il keçirilmiş prezident seçkilərindən sonra islahatların yeni mərhələsinə qədəm qoyduq. Prezident seçkiləri ərəfəsində islahatların anonsu verildi və islahatların məqsədyönlü şəkildə həyata keçirilməsi üçün çox ciddi addımlar atılmışdır, hazırlıq işləri aparılmışdır. Bu ilin birinci rübündə əldə edilmiş sosial və iqtisadi nəticələr göstərir ki, biz düzgün yoldayıq, islahatlara alternativ yoxdur. Son illər ərzində müxtəlif mərhələlərdə islahatlar aparılıb və bu islahatlar nəticəsində ölkəmiz inkişaf edib. Son 15 il ərzində iqtisadi baxımdan dünyada Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır. Ölkəmizdə çox böyük infrastruktur layihələri icra edildi, insanların rifah halı yaxşılaşdı və respublikamızın gələcək inkişafı üçün möhkəm zəmin yaradılmışdır.

...Son illərdə həm sosial, həm infrastruktur sahələrində, insanların rifah halının yaxşılaşdırılması istiqamətində çox ciddi addımlar atılmışdır. Büdcə daxilolmalarının artımı əminəm ki, ilboyu müşahidə olunacaq. Çünki aparılan islahatlar və bizim yanaşma prinsipləri bunu deməyə əsas verir. Beləliklə, bizdə əlavə maliyyə resursu formalaşacaqdır.

İqtisadi və sosial sahədə aparılan siyasət rəqəmlərdə də özünü büruzə verir. Beləliklə, ilin birinci rübündə ümumi daxili məhsul 3 faiz artmışdır. Bu, son bir neçə il ərzində ən yüksək göstəricidir və əminəm ki, ilin sonuna qədər bu rəqəm daha da artacaq. Çünki görülən işlər bunu deməyə əsas verir. Sənaye istehsalı 4,4 faiz artmışdır. Bu da yaxşı göstəricidir. Amma bundan daha yaxşı göstərici odur ki, qeyri-neft sektorunda sənaye istehsalı 15,6 faiz artmışdır. Bax, gördüyümüz işlərin nəticəsi budur və sənaye istehsalının, xüsusilə qeyri-neft sektorunda sənaye istehsalının artırılması bizim siyasətimizin bariz nümunəsidir. Kənd təsərrüfatı 3,6 faiz, əhalinin gəlirləri isə 5,5 faiz artıb. İnflyasiya aşağı səviyyədədir – 2,1 faiz. Ölkə iqtisadiyyatına 2,8 milyard dollar sərmayə qoyulub. Bu sərmayənin 2 milyardı ölkəmizin qeyri-neft sektoruna yatırılıb. Biz burada da müsbət dinamikanı görürük. Çünki bizim əsas məqsədimiz, əsas vəzifəmiz qeyri-neft sektorunun inkişafıdır. Sərmayənin cəlb edilməsi əlbəttə ki, hər bir ölkə üçün çox önəmli məsələdir, o cümlədən bizim üçün. Əgər əvvəlki illərdə daha çox neft-qaz sektoruna sərmayə qoyuluşu təmin edilirdisə, indi hazırda biz bunu qeyri-neft sektorunda görürük və bu da aparılan işlərin nəticəsidir. Çünki Azərbaycanda biznes mühiti yaxşılaşır, sərmayə qoyuluşu üçün daha yaxşı şərait yaradılır, həm yerli, həm xarici sərmayələr dövlət tərəfindən lazımi səviyyədə qorunur. Beləliklə, biz xarici və daxili sərmayələri cəlb etməklə ölkəmizi inkişaf etdiririk. Əlbəttə ki, Azərbaycana sərmayə qoyuluşunun perspektivləri üçün apardığımız islahatlar başlıca rol oynayır. Bildiyiniz kimi, Dünya Bankı "Doing Business" hesabatında Azərbaycanı 25-ci yerə layiq görüb. Biz il ərzində 32 pillə irəliləmişik və ən islahatçı 10 ölkə sırasına yer almışıq. Əlbəttə, xarici investorlar, eyni zamanda, yerli sahibkarlar bunu görürlər, bilirlər və beləliklə, Azərbaycana sərmayə qoyuluşu prosesi əminəm ki, bundan sonra da təmin ediləcəkdir.

Beləliklə, əsas iqtisadi və sosial göstəricilər müsbətdir, dinamika təmin edilir. Əlavə gəlirlərimiz imkan verir ki, biz sosial məsələlərin həllində daha fəal olaq və daha böyük işlər görək. Bildiyiniz kimi, ilin əvvəlindən çox böyük həcmli sosial paket təqdim edildi, təsdiqləndi, müvafiq Fərmanlar imzalandı. Bu prosesə hazırlığı biz keçən ildən başlamışdıq və prezident seçkilərindən sonra andiçmə mərasimində əslində, görüləcək işlərlə bağlı mənim tərəfimdən göstərişlər verildi, yəni bu proses planlı şəkildə konturları müəyyən edildi. Əlavə maliyyə vəsaiti imkan verir ki, biz sosial sahəni daha da gücləndirək. Minimum əməkhaqqı və minimum pensiyalar təxminən 40 faiz, sosial müavinətlər orta hesabla 2 dəfə, məcburi köçkünlərə verilən müavinət 50 faiz artmışdır, tələbələrin təqaüdü, şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə verilən müavinətlər artmışdır. Nəyin hesabına, əlbəttə ki, islahatların hesabına. Ona görə ki, biz daha səmərəli işləyirik, şəffaflığı təmin edirik, biznes mühiti yaxşılaşır. Bu, bizə imkan verir ki, bu məsələləri həll edək."...

Respublikamızın digər rayonlarında olduğu kimi Daşkəsən rayonunda da 2019-cu ilin birinci rübü ərzində bir çox uğurlu işlər və nailiyyətlər əldə olunmuşdur. Belə ki, iqtisadiyyatın əsas sahələrində istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi əvvəlki ilin eyni dövrünə nisbətən müxtəlif sahələr üzrə xeyli artmışdır. Rayon ərazisində bir sıra tikinti, təmir-bərpa, yenidənqurma, abadlıq-quruculuq işləri görülmüşdür və hazırda da həmin işlər davam etdirilməkdədir.

Azərbaycan Hökuməti ilə İslam İnkişaf Bankı tərəfindən maliyyələşən "Daşkəsən şəhərinin su və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinin həyata keçirilməsi üzrə tamamlama işləri yerinə yetirilir. Artıq Daşkəsən şəhəri ekoloji cəhətdən təmiz və fasiləsiz olaraq içməli su ilə təmin olunur.

Daşkəsən şəhər N. Nərimanov adına 3 nömrəli, S. Vurğun adına 4 nömrəli və Qaraqullar kənd tam orta məktəblərində cari təmir işlərinə başlanmışdır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişi əsasında Daşkəsən şəhərində, Daşkəsən qəsəbəsində, Qabaqtəpə və Dəvrəlli kəndlərində Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 4 fərdi yaşayış evinin tikintisi başa çatdırılmışdır.

Fövqəladə Hallar Nazirliyinin xətti ilə Alunitdağ və Yuxarı Daşkəsən qəsəbələrində və Quşçu kəndində evləri qəza vəziyyətində olan vətəndaşlar üçün 3 fərdi yaşayış evinin tikintisində son tamamlama işləri yerinə yetirilir.

Kommunal Müəssisələr Kombinatının maddi-texniki bazası möhkəmləndirilmiş, müəssisəyə 73 nəfər əlavə işçi qüvvəsi verilmişdir. Lakin şəhərin kənar küçələrinin təmizlənməsi, şəhərdən tullantıların yığılaraq daşınması və zərərsizləşdirilməsi sahəsində aidiyyəti üzrə əlavə tədbirlərin görülməsinə ehtiyac vardır.

Daşkəsən rayonu üzrə yaşayış binalarının, yaşayış evlərinin və mənzillərin icbari qaydada sığorta olunması sahəsində 2018-ci il ərzində 109 sığorta müqaviləsi bağlanmışdır. 2019-cu ilin keçən dövrü ərzində isə 207 sığorta müqaviləsi bağlanmış və həmin sahə üzrə işlər davam etdirilir.

Rayon ərazisində daşınar və daşınmaz əmlakın sığorta olunması sahəsində həyata keçirilən tədbirlər sürətləndirilməlidir. Bu sahədə yerlərdə maarifləndirmə işləri daha da genişləndirilməlidir.

2019-cu ilin yanvar ayında Daşkəsən Rayon İcra Hakimiyyəti Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsi ilə razılaşdırılmış formada "DOST İŞ Mərkəzi" MMC tərəfindən layihə üzrə 130 nəfər işsiz şəxslə müvafiq qanunvericiliyə uyğun müddətli əmək müqaviləsi bağlanılaraq onlar rayonda ödənişli ictimai işlərə cəlb olunmuşdur.

Eyni qayda üzrə cari ilin aprel ayında əlavə 90 nəfər işsiz şəxsin ödənişli ictimai işlərə cəlb olunması nəzərdə tutulmuş, hazırda onlardan 86-sı ilə müddətli əmək müqaviləsi bağlanılaraq rayonda ödənişli ictimai işlərə götürülmüşdür.

Daşkəsən Rayon Məşğulluq Mərkəzi tərəfindən birinci rüb ərzində özünəməşğulluq layihəsinin tələblərinə 16 nəfər iş axtaran vətəndaş cəlb olunmuşdur.

Novruz bayramı ərəfəsində Heydər Əliyev Fondunun hesabına Daşkəsən rayonu ərazisində yaşayan 316 aztəminatlı ailəyə bayram sovqatı paylanmışdır.

Birinci rüb ərzində rayon ərazisində bir sıra mədəni-kütləvi tədbirlər keçirilmişdir.

Daşkəsən şəhərinin Heydər Əliyev meydanında 19 mart 2019-cu il tarixdə qədim, milli bayramımız olan Novruz bayramı minlərlə rayon sakininin iştirakı ilə yüksək səviyyədə keçirilmiş, rayon ərazisində olan N saylı hərbi hissənin əsgərlərinə bayram sovqatları verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə respublikamızın şəhər və rayonlarının ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri üçün "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən növbəti maarifləndirici tur-aksiyalara start verilmiş, 20 nəfər məktəbli "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyası çərçivəsində 23-26 mart 2019-cu il tarixlərdə Qəbələ-Şəki-Zaqatala marşrutunun iştirakçıları olmuşlar.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə həsr edilmiş iclasında qeyd etmişdir ki, "Bu ilin yanvar ayında regionların sosial-iqtisadi inkişafına dair dördüncü Dövlət Proqramı qəbul edilmişdir. Bu da çox önəmli hadisədir. Üçüncü proqram uğurla və artıqlaması ilə icra edilmişdir. Üç proqramın icrası nəticəsində ölkəmizdə bir çox önəmli məsələlər öz həllini tapıb, o cümlədən sosial infrastruktur sahəsində.

...Dördüncü proqramın qəbul edilməsi önəmli hadisədir. Dördüncü proqram beş il ərzində icra ediləcək. Bu gün hələ də görə bilmədiyimiz işləri biz növbəti illər ərzində görəcəyik ki, ölkəmiz daha da inamla, uğurla inkişaf etsin"...

Azərbaycan Respublikası Prezidentinin 29 yanvar 2019-cu il tarixli, Fərmanı ilə "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir. Dövlət Proqramının Tədbirlər Planında Daşkəsən rayonuna aid 16 tədbir nəzərdə tutulmuşdur.

Daşkəsən Rayon İcra Hakimiyyəti tərəfindən cari ilin keçən dövrü ərzində rayona özəl investisiyaların cəlb olunması sahəsində bir sıra işlər görülmüşdür. Rayona investisiya cəlb olunması məqsədilə ərazidə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, sənaye, energetika, tikinti, ticarət, nəqliyyat, telekommunikasiya və poçt, maliyyə və bank, turizm və digər xidmət sahələri üzrə mövcud vəziyyət, məlumatlar kütləvi informasiya vasitələri ilə hərtərəfli təşviq olunmuşdur. İş adamları, sahibkarlar və aidiyyəti qurumlarla birgə investisiyaların qoyulması, müvafiq layihələrin işlənib hazırlanması məsələləri geniş təhlil edilərək tətbiq olunması daha məqsədəuyğun olan təkliflər müəyyənləşdirilərək, özəl investisiya qoyuluşu üzrə investisiya qoymaq istəyən hüquqi və fiziki şəxslərə lazımi köməklik göstərilməklə əlverişli şərait yaradılması nəzərdə tutulmuşdur.

Möhtərəm Prezident cənab İlham Əliyev Nazirlər Kabinetinin iclasında yekun nitqində qeyd etmişdir: "Kənd təsərrüfatı ilə bağlı aparılan islahatlar haqqında məruzə edildi. Bu sahə də daim diqqət mərkəzindədir. Bildiyiniz kimi, dövlət bu sahəyə çox böyük dəstək, yardım göstərir. Güzəştli şərtlərlə gübrələr, yanacaq, subsidiyalar, texnika verilir. Mən deyə bilərəm ki, Azərbaycan bu sahədə dünya miqyasında fermerlərə dəstək baxımından ən qabaqcıl ölkələrdən biridir. Həm də onlardan vergilər də tutulmur, torpaq vergisi istisna olmaq şərti ilə. Yəni, bu sahəyə maksimum dəstək verilir. Bu sahədə aparılan islahatlar, əminəm ki, daha da böyük nəticələrə gətirib çıxaracaq. Hesab edirəm ki, indiki 3,6 faiz artım bizim potensialımızı tam əks etdirmir. Çünki bu qədər işlər görülür – həm meliorativ tədbirlər, həm dövlət tərəfindən dəstək. Fındıqçılıq, üzümçülük, pambıqçılıq, taxılçılıq, meyvəçilik, tərəvəzçilik sahəsində görülən işlər indi burada məruzədə də səsləndi. Yəni, bizim istehsalımız və ixracımız böyük dərəcədə artır. Mən hesab edirəm ki, görülmüş işləri və islahatları nəzərə alsaq kənd təsərrüfatında artım daha da yüksək ola bilər "...

Rayonda 3 kartofçuluq üzrə toxumçuluq təsərrüfatı fəaliyyət göstərir. Toxumçuluq təsərrüfatlarının artırılması üçün işlər davam etdirilir.

Heyvanların cins tərkibinin yaxşılaşdırılması məqsədilə 2019-cu ilin birinci rübü ərzində 84 baş heyvan süni mayalandırılmışdır. Əvvəlki ildə mayalandırılmış heyvanlardan 89 baş bala alınmışdır. Gələcəkdə məntəqələrin sayının artırılması üçün işlər davam etdirilir.

"Arıçılıq haqqında" qanunun tələblərinə uyğun olaraq rayonda arı ailələrinin saxlanması üçün əlverişli şəraitin, imkanların mövcud olması nəzərə alınaraq arıçılığın inkişafı üçün tədbirlər davam etdirilmişdir. Rayon ərazisində 5000 arı ailəsi vardır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 sentyabr 2018-ci il tarixli 400 nömrəli qərarı ilə təsdiq edilmiş hər arı ailəsinə 10 manat subsidiya verilməsi məqsədilə rayonda 174 nəfər olmaqla 4141 arı ailəsi kodlaşdırılaraq aidiyyəti üzrə sənədlər Kənd Təsərrüfatı Nazirliyinə təqdim olunmuş və həmin arı ailələrinə görə arı sahiblərinə 41410 manat subsidiya verilmişdir.

Daşkəsən rayonu ərazisində 2019-cu il ümumilikdə yaylaq mövsümünün başlanması ilə əlaqədar, o cümlədən baytar-nəzarət məntəqəsinin təşkil edilməsi barədə Daşkəsən Rayon İcra Hakimiyyəti tərəfindən 18 mart 2019-cu il tarixli 11 nömrəli sərəncam verilmişdir.

Əvvəlki illə müqayisədə bu il Daşkəsən rayonuna məxsus olan, lakin qış mövsümü ərzində kənar rayonlarda qışlama keçən, yaylaq mövsümündə rayona qayıdan yerli sakinlərə məxsus təsərrüfatların rayon ərazisinə buraxılması həmin vətəndaşların yaşadığı inzibati əraziyə uyğun olaraq aidiyyəti üzrə Rayon İcra Hakimiyyəti Başçısının İnzibati ərazi dairəsi üzrə nümayəndəliklərinə həvalə olunmuşdur. Yaz-yay mövsümlərində yaylaqlardan və örüş otlaq sahələrindən səmərəli istifadə edilməlidir. Qeyd etmək lazımdır ki, rayonda torpaqdan təyinatı üzrə istifadəyə görə müəyyən nöqsanlar mövcuddur. Həmin nöqsanların aradan qaldırılması üçün müvafiq tədbirlər görülməlidir. Rayonun aidiyyəti üzrə qurumları bu sahədə bütün lazımi tədbirləri yerinə yetirməlidirlər.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə 2019-cu ilin fevral ayının 11-dən mayın 11-nə kimi ölkədə əhalinin sağlamlığının təmin etmək üçün tibbi müayinə günləri təşkil edilmişdir. Həmin tapşırığa əsasən, Daşkəsən Rayon Mərkəzi Xəstəxanasında 49 yaşayış məntəqəsinin əhalisi və rayonun idarə, müəssisə və təşkilatlarının işçiləri tibbi müayinələrdən keçirilmişdir. Bu müddət ərzində 23834 nəfər tibbi müayinədən keçmiş, 330 nəfər müxtəlif xəstəliklərdən ixtisaslaşmış tibb müəssisələrinə göndərilmiş, 489 nəfər Daşkəsən Rayon Mərkəzi Xəstəxanasının stasionar müalicəsinə cəlb olunmuş, 564 nəfərə isə ambulator müalicə yazılmışdır. Tibbi müayinədən keçən Daşkəsən rayon sakinləri onların sağlamlığına göstərdiyi diqqət və qayğıya görə ölkə başçısı cənab İlham Əliyevə öz minnətdarlıqlarını bildirmişlər.



"Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 20 dekabr 2018-ci il tarixli Fərmanı olmuşdur.

İcbari tibbi sığorta həmrəylik prinsiplərinə əsaslanan sosial layihədir. Bu layihənin məqsədi səhiyyənin maliyyələşdirilməsini təkmilləşdirmək, habelə əhaliyə etibarlı, keyfiyyətli, səmərəli tibbi xidmətlərin göstərilməsinə zəmanət verəcək universal və dayanıqlı tibbi sığortanı təmin etməkdir.

Səhiyyə Nazirliyinin tabeliyindən çıxarılaraq Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyinin (TƏBİB-in) tabeliyinə veriləcək xəstəxanalar müəyyənləşdirilmiş, Nazirlər Kabineti Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyi publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrinin siyahısı təsdiq olunmuşdur. Həmin siyahıya Daşkəsən Rayon Mərkəzi Xəstəxanası, kənd sahə xəstəxanaları, kənd və qəsəbələr üzrə həkim və tibb məntəqələri daxil edilmişdir. Həmin Qanun 2020-ci il yanvarın 1-dən qüvvəyə minəcəkdir.

53 bənddən ibarət "Yeni Daşkəsən" layihəsi Daşkəsən Rayon İcra Hakimiyyəti tərəfindən elmi əsaslarla işlənib hazırlanmış və 22 yanvar 2013-cü il tarixdə rayonun mətbu orqanı "Daşkəsən" qəzetində dərc edilmişdir. Bu proqram xarakterli mükəmməl layihə aidiyyəti üzrə nazirliklərə göndərilmiş, müsbət rəylər alınmış, layihənin həyata keçirilməsi üçün hələ 2013-cü ildən müvafiq tapşırıqlar verməklə, bu məsələlərin həll olunması işlərinə başlanmışdır. 2013-cü ildə Rayon İcra Hakimiyyəti tərəfindən hazırlanmış həmin proqramla rayonun hərtərəfli sosial-iqtisadi inkişafı, kənd təsərrüfatının mövcud vəziyyəti, ayrı-ayrı sektorlarının – heyvandarlığın, arıçılığın, kartofçuluğun, toxumçuluğun, həmçinin turizmin inkişafı, yeni inzibati binaların, korpusların inşası, su, qaz, elektrik təchizatı, yol və körpülərin salınması məsələsi, ən əsası isə yeni iş yerlərinin açılıb işsizliyin aradan qaldırılması, sahibkarlara münbit şəraitin yaradılması, mövcud problemlərin həlli, o cümlədən Daşkəsən rayonunun "Daşkəsən Filizsaflaşdırma" Açıq Səhmdar Cəmiyyətinin bazasında yaradılması əsas götürülərək "Daşkəsən Filizsaflaşdırma" ASC-nin, eləcə də "Alunit" İstehsalat sahəsinin yenidən işə salınmasının müasir səviyyədə təmin olunması əsas vəzifə kimi qarşıya qoyulmuşdur.

"Daşkəsən Filizsaflaşdırma" ASC-nin və "Alunit" İstehsalat sahəsinin müasir texniki avadanlıqlarla təchiz edilərək müasir formada işə salınması həm rayonda işsizliyin tamamilə aradan qaldırılmasına, həm cəbhə boyu zonada, ermənilərlə təmas xəttində yerləşən Daşkəsən rayon sakinlərinin daimi işlə təmin olunmasına hərtərəfli şərait yaradacaq, həm də uzun müddət problemli məsələlər tam öz həllini taparaq Daşkəsən rayonu regionda inkişaf etmiş pilot bir rayona çevriləcəkdir.

"Azərbaycan Respublikasının Metallurgiya kompleksində sağlamlaşdırma və restrukturizasiya tədbirlərinin həyata keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 13 iyul 2016-cı il tarixli sərəncamı olmuşdur. Sərəncama əsasən, Azərbaycan Polad İstehsalı Kompleksinə daxil edilmiş "Daşkəsən Filizsaflaşdırma" ASC özəlləşdirməyə açıq elan olunmuş və bu məqsədlə Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin sərəncamına verilmişdir. Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsində "Daşkəsən Filizsaflaşdırma" ASC-nin səhmlərinin investisiya müsabiqəsi vasitəsilə özəlləşdirilməsi üzrə müsabiqə komissiyası yaradılmış və müsabiqə komissiyasının iclasları keçirilmişdir.

Birinci rüb ərzində "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinə məxsus Çovdar Filiz Emalı Sahəsi və Azərbaycan Şəkər İstehsalat Birliyi İmişli Şəkər zavodunun "Daşkəsən Əhəng daşı" mədəni öz fəaliyyətlərini davam etdirmişlər.

Birinci rüb ərzində "AzerGold" QSC-yə məxsus Çovdar Filiz Emalı Sahəsində 432,3 kiloqram qızıl filizləri və konsentratları, 901,8 kiloqram isə digər qiymətli metal filizləri və konsentratları istehsal olunmuşdur.

Daşkəsən rayon Telekommunikasiya Qovşağı tərəfindən 66100 manatlıq rabitə xidməti göstərilmişdir. Rayonun Zəylik, Qaraqullar, Əhmədli, Yuxarı Daşkəsən, Quşçu, Bayan, Xoşbulaq və Dəstəfur kənd EATS-lərində rabitənin keyfiyyətini daha da yaxşılaşdırmaq məqsədilə profilaktiki işlər görülmüşdür. Rayon Telekommunikasiya Qovşağına yeni müasir avadanlıqların gətirilməsinə, sürətli internet istifadəçilərinin sayının artırılmasına və rayonun kəndlərində əhalinin internetdən istifadə etmələri üçün lazımi şəraitin yaradılmasına ehtiyac vardır.

"Azərpoçt" MMC-nin Daşkəsən Rayon Poçt Filialı tərəfindən 17643 manatlıq xidmət göstərilmişdir.

Elektrik enerjisi, qaz və su haqlarının qəbulu davam etdirilmiş, baratların qəbulu və vaxtında ötürülməsi, poçtun daşınması və çatdırılması təmin edilmişdir.

"31 nömrəli Yol İstismarı" MMC tərəfindən respublika və yerli əhəmiyyətli avtomobil yollarının saxlanması və təmiri üzrə 248,3 min manatlıq iş görülmüşdür. Görülmüş işlərə baxmayaraq, Daşkəsən-Xoşbulaq avtomobil yolunun (Yuxarı Daşkəsən qəsəbə ərazisində) 4-cü kilometrində yerləşən su keçidinin və yolların 2016-cı ildən yaranmış qəzalı vəziyyəti tam aradan qaldırılmamışdır.

Daşkəsən-Əmirvar-Qabaqtəpə avtomobil yolunda işlər davam etdirilir.

"Daşkəsən rayonunun Gəncə-Daşkəsən (27 km)-Quşçu-Çovdar-Çaykənd avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 4 aprel 2019-cu il tarixli Sərəncamı olmuşdur. Quşçu-Çovdar-Çaykənd avtomobil yolunun tikintisi işlərinə başlanmışdır. Həmin işlər Xocalı Yol İstismarı İdarəsi tərəfindən həyata keçirilir.

"Yeni Daşkəsən" ideyası rayonun yüksəlişindən və cənab Prezidentin yaratdığı inkişaf siyasətindən qaynaqlanır. Rayonun bütün daxili yollarının, körpülərin əsaslı təmiri üzrə Daşkəsən Rayon İcra Hakimiyyəti tərəfindən Nazirlər Kabinetinə, Baş Nazirə kompleks layihə təklifləri işlənib təqdim olunmuşdur.

Möhtərəm Prezident cənab İlham Əliyev Nazirlər Kabinetinin iclasında yekun nitqində qeyd etmişdir: "İlin sonuna qədər elektrik enerjisi ilə bağlı modernləşdirmə prosesi davam etdiriləcək. Mövcud stansiyaların potensialının gücləndirilməsi üçün işlər aparılır. Yenidənqurma, bərpa, modernləşmə işləri nəticəsində biz mövcud stansiyalarda ən azı 400-500 meqavat əlavə enerji gücü əldə edə bilərik. Artıq bütün hesablamalar var və əminəm ki, biz bu işdə uğur qazanacağıq. Beləliklə, hesab edirik ki, ancaq modernləşmə nəticəsində bir böyük yeni stansiya qurulacaq. Əgər biz "Şimal-2" stansiyasının tikintisini də əlavə etsək, - o da təqribən 400-500 meqavat gücünə malik stansiya olacaq, - bizim enerji potensialımız daha da artacaq və ölkəmizin artan sənaye potensialı, artan əhali əlbəttə ki, gələcəkdə də etibarlı qaydada elektrik enerjisi ilə təmin ediləcəkdir.

Giriş sözümdə qeyd etdim ki, qazlaşdırma Azərbaycanda ən yüksək səviyyədədir və bu il də qazlaşdırma ilə bağlı işlər aparılır. Biz imkanlardan maksimum istifadə etməliyik ki, bu gün hələ də qaz almayan qəsəbələrə, kəndlərə qaz xətləri çəkək. Şəhərlərdə bəzi yerlərdə qazın təzyiqi aşağıdır və bu məsələ ilə bağlı müvafiq göstərişlər verildi, işlər görülür ki, əhaliyə keyfiyyətli qaz verilsin. Eyni zamanda, "Azəriqaz" tərəfindən bəzi hallarda əsası olmayan işlərə də son qoyulmalıdır. Çünki mənə məlumat verilir ki, "Azəriqaz" özü birtərəfli olaraq hansısa qaydalar tətbiq edir və bəzi hallarda insanlara problemlər yaradır. Buna son qoyulmalıdır və burada maksimum şəffaflıq, ədalət olmalıdır. Çünki yerlərdən belə siqnallar gəlir ki, həm sayğaclarla, həm qazın keyfiyyəti ilə bağlı problemlər var, bunlar tamamilə aradan qaldırılmalıdır. Bütün sahələrdə - elektrik enerjisi, içməli su, təbii qazın verilməsi ilə bağlı maksimum şəffaflıq və ədalət olmalıdır.

İçməli su layihələrinin icrası ilə bağlı deyə bilərəm ki, bu günə qədər 38 şəhərdə bu layihələr başa çatıb. Əvvəlki illərdə su ilə təmin edilməyən 38 şəhərə biz təmiz içməli su xətləri çəkdik ki, suyun keyfiyyəti Dünya Səhiyyə Təşkilatının standartlarına uyğundur. Bu ilin sonuna qədər əlavə 5 şəhərdə bu layihələr başa çatmalıdır və 12 şəhərdə işlər davam edir. Növbəti illərdə onlar da başa çatacaq".

Əhalinin elektrik enerjisi, qaz və içməli su ilə təchizatı vəziyyətinin yaxşılaşdırılması məqsədilə bir sıra təmir-bərpa, yenidənqurma işləri həyata keçirilmişdir.

Daşkəsən Elektrik Şəbəkəsi tərəfindən zədələnmiş Qaratağlar kəndində yeni tikilmiş 160 kVA gücündə 1 ədəd yarımstansiya şəbəkəyə qoşulmuş, 3 ədəd müxtəlif güclü transformator dəyişdirilmiş, 6/0,4 kV-luq 18 ədəd yarımstansiyada təmir işləri aparılmış, 72 ədəd yararsız ağac dayaq metal boru dayaqla əvəz olunmuş, 6 Kv-luq Xoşbulaq hava xəttində 6 ədəd əlavə dayaq basdırılaraq 185 metr zədəli naqil dəyişdirilmiş, transformatorlara 440 kiloqram transformator yağı əlavə olunmuşdur. İstifadə olunmuş elektrik enerjisinin uçotunun dəqiqləşdirilməsi üçün 3 yarımstansiyada balans sayğacı quraşdırılmış və 1 ədəd yanmış balans sayğacı dəyişdirilmişdir. Daşkəsən şəhərindəki 5063012, 5060017 saylı və Zağalı kəndindəki 5060054 saylı yarımstansiyalardan çıxan 0,4 kV-luq hava xətti kabel xətti ilə əvəz olunmuş, Daşkəsən şəhərindəki 5060012, 5060016, 5060003 saylı yarımstansiyaların ərazisində və rayonun Əhmədli, Quşçu, Astaf, Şahvələdli, Əmirvar-Əhmədli, Tapan, Xoşbulaq kəndlərində və Yuxarı Daşkəsən qəsəbəsində ÖİN kabelin çəkilişi davam etdirilmişdir. Həmin işlərin yerinə yetirilməsi zamanı 41 ədəd ÖİN kabel üçün dayaq basdırılmış, 9940 metr müxtəlif markalı kabel çəkilmişdir. Rayonun bəzi yaşayış məntəqələrində SİP kabelin çəkilişi tam başa çatdırılmamış, bir çox yaşayış məntəqələrində isə həmin kabelin çəkilişinə başlanmamışdır.

Hesabat dövründə Daşkəsən Elektrik şəbəkəsinin rəhbərliyi dəyişdirilmişdir. Yeni təyin olunmuş Elektrik şəbəkəsinin rəhbərliyi Elektrik şəbəkəsinin yeni, müasir tələblər səviyyəsində qurulmasını, elektrik enerjisinin dəyərinin tam ödənilməsini təmin etməli və qeyri-balans itkisinin səbəblərini müəyyənləşdirərək bu sahədə daha ciddi tədbirlər görməlidir.

Hazırda rayonun 49 yaşayış məntəqəsindən cəmi 10 yaşayış məntəqəsi təbii qazla təmin olunur.

2019-cu ilin birinci rübü ərzində rayonun Quşçu kəndində 368, Bayan kəndində isə 395 abonent təbii qazla təmin olunmuş və həmin işlər davam etdirilir.

Quşçu, Quşçu körpü və Daşkəsən qəsəbələrinə yeni qazlaşma işlərinin aparılması üçün layihə sənədləri hazırlanmış, artıq bu ay həmin yaşayış məntəqələrinin qazlaşdırılması işlərinə başlanacaqdır. Rayonda istehlakçıların təbii qazla təmin olunmasında mövcud problemlərin həll edilməsi üçün Qaz Xidmət Sahəsinin rəhbərliyi aidiyyəti üzrə lazımi tədbirlər görməlidir.

Sukanal idarəsinin xidmət etdiyi 2098 abonentdən 1903 abonent smart tipli su sayğacı ilə 24 saat içməli su ilə təmin edilir. Su-kanalizasiya sisteminin yenidən qurulması üzrə görülməsi nəzərdə tutulmuş bəzi işlər yerinə yetirilməmiş, o cümlədən Daşkəsən Sukanal idarəsinin inzibati binasının tikintisinə başlanmamış, təmizləyici qurğunun tikintisi başa çatdırılmamış, binaların, evlərin kanalizasiya xətləri yeni sistemin kanalizasiya xətlərinə birləşdirilməmişdir. Daşkəsən rayon Sukanal idarəsinin fəaliyyətində bir sıra çatışmazlıqlar mövcuddur. Hesabat dövründə Daşkəsən rayon Sukanal idarəsinin rəhbərliyi dəyişdirilmişdir.

Qarşımızda çox məsul və şərəfli vəzifələr durur. Aprelin 30-da Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə həsr edilmiş iclasında müxtəlif sahələrdə mövcud vəziyyəti hərtərəfli təhlil edərək qarşıda duran vəzifələri göstərən möhtərəm Prezident cənab İlham Əliyev yekun nitqində demişdir: "...Görülmüş işlər deməyə əsas verir ki, biz düzgün yoldayıq. Buna heç bir şübhəmiz yoxdur. İqtisadi, sosial sahələrdə və bütün başqa sahələrdə islahatlar bundan sonra da aparılacaq. Bildiyiniz kimi, bu yaxınlarda məhkəmə-hüquq sahəsində islahatlarla bağlı müvafiq Fərman imzalanmışdır. Hesab edirəm ki, onun icrası bu sahədə də ciddi dönüşə səbəb olacaq. Yəni, biz gərək hər bir sahədə irəli gedək. Yeniliklər, müsbət təcrübə, dünyada mövcud olan ən mütərəqqi yanaşma Azərbaycanda tətbiq edilməlidir. Nəzərə almalıyıq ki, bizim neft-qaz sektorumuz da iqtisadiyyata böyük dəstəkdir. Nəzərə almalıyıq ki, biz indi nəqliyyat mərkəzlərindən birinə çevrilirik. Bu yaxınlarda Çində keçirilmiş "Bir kəmər, bir yol" Forumunda Azərbaycanın iştirakı bir daha onu göstərir ki, ölkəmiz bu önəmli layihənin tərkib hissəsidir. Bizim gəlirlərimiz artacaq, maliyyə və iqtisadi imkanlarımız daha da böyüyəcək.

Biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik, daim irəliyə baxmalıyıq. Əminəm ki, biz bu ili də uğurla başa vuracağıq, 2019-cu il də ölkəmiz üçün, xalqımız üçün uğurlu olacaq".

İcazə verin, Azərbaycan Respublikasının möhtərəm Prezidenti cənab İlham Əliyevi bir daha əmin edim ki, bundan sonra da qarşıda duran vəzifələrin layiqincə yerinə yetirilməsi üçün daha yüksək əzmkarlıq göstərərək, bütün qüvvəmizi səfərbər edib, var gücümüzlə çalışacağıq.

Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyevin dərin məzmunlu geniş nitqindən sonra məruzə ətrafında rayon üzrə Maliyyə İdarəsinin rəisi Natiq Zeynalov, RİHB-nin Daşkəsən şəhər İƏDÜN-si Nüsrət Vəliyev və digərləri çıxışlar etmiş, qarşıda duran vəzifələrin icrasından danışmış, daşkəsənlilərə göstərilən diqqət və qayğıya görə möhtərəm Prezident cənab İlham Əliyevə minnətdarlıqlarını bildirmişlər.

Yığıncaqda müzakirə olunan məsələlərlə əlaqədar qərar qəbul edildikdən sonra toplantı iştirakçıları adından Prezident cənab İlham Əliyevə müraciət qəbul olunmuşdur.

**Elmar ƏLİYEV**
*RİHBA-nın İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı*

# DAŞKƏSƏNDƏ HƏRBİ XİDMƏTİNİ BAŞA VURMUŞ GƏNCLƏRİN TƏNTƏNƏLİ QARŞILANMASI MƏRASİMİ KEÇİRİLİB









**Aprelin 16-da Daşkəsən Rayon İcra Hakimiyyəti, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Daşkəsən rayon bölməsinin birgə təşkilatçılığı ilə Daşkəsən rayonundan olan ehtiyata buraxılmış müddətli həqiqi hərbi xidmət qulluqçularının qarşılanması münasibətilə təntənəli tədbir keçirilib.**

Tədbirdə rayon rəhbərliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Daşkəsən rayon bölməsinin şəxsi heyəti, şəhid ailələri, Qarabağ müharibəsi veteranları, hərbi xidmətə çağırış yaşlı gənclər, valideynlər, məktəblilər, ictimaiyyət nümayəndələri və KİV mənsubları iştirak ediblər.

Əvvəlcə tədbir iştirakçıları rayon mərkəzində ucaldılmış xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi önünə tər gül dəstələri qoyaraq Ulu Öndərin əziz xatirəsini ehtiramla anıblar.

Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş qəhrəman Vətən övladlarının əziz xatirəsinin ehtiramla yad edilməsi ilə başlanan tədbiri giriş sözü ilə açan Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev deyib:

– Mən hərbi xidmətini başa vurub rayonumuza alnıaçıq, başıuca qayıtmış gənclərimizi, onların valideynlərini, bütün rayon ictimaiyyətini ürəkdən təbrik edirəm, gənclərimizə sağlam uzun ömür, gələcək həyatlarında uğurlar və xoşbəxtlik arzulayıram.

Müasir Azərbaycan dövlətinin ordu quruculuğu və onun qısa müddətdə yüksək inkişafı xalqımızın ümummilli lideri Heydər Əliyevin müstəsna xidmətləri ilə bağlıdır. Heydər Əliyev Azərbaycanın hərtərəfli inkişafına, iqtisadi-siyasi cəhətdən güclənməsinə, vətəndaşların həyat şəraitinin yaxşılaşdırılmasına, dövlətimizin, xalqımızın təhlükəsizliyinin təminatına böyük töhfələrini vermiş, onun gələcəyini müəyyən etmişdir. Ulu Öndərin Azərbaycanda ordu quruculuğu istiqamətində açdığı yol bu gün möhtərəm Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi altında Silahlı Qüvvələrimiz özünün yeni inkişaf mərhələsinə qədəm qoymuş, şəxsi heyətin müasir hərbi texnika ilə təminatı, onun xidmət və həyat şəraiti davamlı şəkildə yaxşılaşdırılmışdır. Aparılan genişmiqyaslı islahatlar nəticəsində hazırda Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü ordularından biri kimi dəyərləndirilir.

İndi ordu ilə xalq arasındakı qarşılıqlı münasibət bütün ölkəmizdə olduğu kimi Daşkəsəndə də tam sağlam təməllər üzərindədir. Gənclərimiz vətənpərvərlik ruhunda tərbiyə olunurlar, rayonumuzda və ölkədə gedən ictimai-siyasi hadisələrə sağlam münasibət bəsləyirlər, bir-birinin ardınca uğurlar qazanırlar.

Daşkəsənli gənclər bütün dövrlərdə ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin təmin olunmasında yaxından iştirak ediblər, bu gün də həmin ənənə davam etməkdədir.

Ulu Öndər Heydər Əliyev siyasətinə hər zaman sədaqət nümayiş etdirən biz, daşkəsənlilər dərindən inanırıq ki, Dövlət Başçımız möhtərəm cənab İlham Əliyevin rəhbərliyi ilə işğal altında olan tarixi torpaqlarımız tezliklə azad olunacaq, məcburi köçkün və qaçın soydaşlarımız öz dədə-baba yurdlarına qayıdacaqlar.

Çıxış edən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Daşkəsən rayon bölməsinin rəisi mayor Aqşin Xancanov isə ölkəmizdə ordu quruculuğu sahəsində qazanılmış uğurlardan söhbət açıb. Vətəni göz bəbəyitək qorumağın müqəddəs və məsuliyyətli vəzifə olduğunu deyən bölmə rəisi düşməndən qat-qat üstün olan ordumuzun doğma torpaqlarımızın keşiyində daim ayıq-sayıq dayandığını, hərb işinin sirlərinə mükəmməl yiyələndiklərini, Dövlət Başçımızın rəhbərliyi altında ölkəmizin ərazi bütövlüyünün möhkəm qorunduğunu diqqətə çatdırıb.

Tərxis olunmuş çağırışçılar adından çıxış edən Zöhrab Həsənov isə göstərilən diqqətə, yaradılan hər cür yüksək şəraitə görə Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə minnətdarlıq bildirib.

Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev Silahlı Qüvvələrin sıralarından tərxis olunmuş rayon gənclərinə hərbi biletlərini və hədiyyələr təqdim edib.

Gənclər rayon Məşğulluq Mərkəzi tərəfindən işlə təmin olunmaları üçün qeydiyyata götürülüblər.

Tədbir ədəbi-bədii kompozisiya və musiqi proqramı ilə başa çatıb.

